# Haylar qətl və terror üçün üç diviziya yaratmışdılar



*Erməni vandalları Qərbi Azərbaycandakı soydaşlarımızı məhv etmək üçün XX əsrin əvvəllərində yaratdıqları hərbiləşdirilmiş parakəndə quldur dəstələri ilə kifayətlənməyib, azərbaycanlılara daha amansız şəkildə zərbə vurmaq məqsədilə nizami ordu yaratmağı qərara aldılar. Haylar 1917-ci ilin may ayında, o zamankı Rusiya müvəqqəti hökumətin başçısı Kerenskinin yanına adamlarını göndərdilər. Ondan xahiş etdilər ki, rus ordusunda xidmət keçmiş erməni əsgər və zabitlərin iştirakı ilə yerli ermənilərdən könüllülər toplayıb erməni ordusu yaratsınlar, türklərə qarşı vuruşmanı gücləndirsinlər.*

Eyni zamanda ondan silah da tələb etdilər. Kerenski onların xahişini yerinə yetirərək, tələblərini təmin etdi. Bundan sonra ermənilər həmin ilin may ayında 35 min nəfərlik qoşun korpusu yaratdılar. General T.Nazaryan korpus komandiri, Dro Qanyan korpus komandirinin müavini təyin edildi. Korpus 3 diviziyaya bölünürdü. Diviziyalar arasında sahə bölgüsü də aparıldı. Hansı diviziya hansı bölgələrdəki azərbaycanlıları qırıb, yandırıb, məhv etməsi planlaşdırıldı.

General Andranik Zəngəzur və digər ərazilərdə, general Arisyan, Dro Qanyan İrəvan ətrafı, Zəngibasar, Eçmiədzin, Qurudüzlü və Vedibasar rayonunun aran hissəsində, Qəmərli və Dərələyəz zonalarında, polkovnik Silikyan isə Göyçə gölü ətrafı rayonlarda azərbaycanlıları məhv etməli idi. Bu işlərə dirijorluq etmək isə qəddar, cəllad keşişlərə tapşırılmışdı.

Erməni daşnakları Vedi rayonunun Qədirli, Qaraxac, Birəli, Şahamlı kəndlərinin camaatını amansızlıqla silah gücünə damlara doldurub yandırdılar.

Andranikin qoşunu Naxçıvandan keçib Zəngəzur zonasında, Sisyan, Qafan rayonlarında olan Azərbaycan kəndlərini dağıdıb əhalini məhv etdi. Sisyan rayonunun Urut, Darbaş, Ağudu, Vağıda, Şükür, Məlikli, Şəki və başqa kəndlərin əhalisini damlara doldurub yandırdılar. Həmin günlərdə Qafan rayonunun Oxcu kənd əhalisinin başına gətirilən faciələr barədə Gəncə qubernatoruna 11 dekabr 1918-ci il tarixdə teleqramla xəbər verilmişdi. Teleqramda deyilirdi: "Zəngəzur qəzası rəisinin məlumatına görə, dekabrın 19-da Andarinikin dəstəsi yerli ermənilərlə birlikdə Kığı dərəsində müsəlmanları qırdılar".

Cəbrayıl-Zəngəzur zonası qəza rəisi Namazəliyevin teleqramında isə göstərilirdi ki, ingilis, fransız nümayəndə heyəti gedəndən sonra dekabrın 10-da ermənilər müsəlman kəndi olan Şabadim və bir neçə başqa kəndlərə hücum etdilər. Erməni əsirləri bildirdi ki, onların hamısına Andranikin yerlə-yeksan etdiyi kəndlərin çoxunun yalnız adı alıb. Bir neçə kəndin kişilərini barışıq adı ilə Oxcu kəndində neft tökərək yandırmışlar.

Andranikin kütləvi qırğınları ilə bağlı daha bir canlı fakt Zəngəzur qəza rəisinin 114 nömrəli teleqramında deyilir: "Andranikin başçılığı ilə 30 müsəlman kəndinin əhalisi qırılıb, yandırılıb, kəndlər dağıdılıb, əmlakları talan edilib, qaçıb qurtara bilməyənlər vəhşicəsinə öldürülüb".

Zəngəzur qəzasının rəisi Ağadadaşın 1919-cu il yanvar ayındakı teleqramında deyilir: "Quşanlıq, Əcili, Əfşərli kəndləri ermənilər tərəfindən yanvarın birinci günlərindən dağıdılıb. Şəhərcik, Acağu mühasirə ediləndən sonra ermənilər tərəfindən alınmış, Çirətağ, Mollalı, Qoreşud, Qarabaşlar, Baharlı, Kığı, Dasbası, Mahmudlu, Keybəşir, Kürüt, Reyhan, Körş, Ağbaş kəndləri ermənilər tərəfindən mühasirəyə alınmışdır. Döyüşlər əsasən Andranikin başçılığı ilə aparılır".

Vurğulamaq lazımdır ki, Andranik Dağlıq Darabağda böyük müqavimətlə üzləşir və Zəngəzurdan qovulur. 1919-cu ilin əvvəlində Naxçıvana qayıtsa da, yerli əhalinin və Abbasqulu bəy Şadlinskinin silahlı dəstəsinin təzyiqi nəticəsində dərhal buradan qovulub. 1919-cu ilin aprel ayında İrəvana gəlir və sonra xarici ölkələrə qaçıb.

Ümumiyyətlə, erməni daşnakları 1918-1920-ci illərdə Qərbi Azərbaycanda xalqımıza qarşı analoqu olmayan faciələr törətmiş, insanlar kütləvi şəkildə qətlə yetirilmiş, əmlakları müsadirə edilmiş, Azərbaycan ailələrinin çoxu zülm və işgəncədən yaxa qurtarmaq üçün İrana, Türkiyəyə və başqa ərazilərə üz tutmuşlar. Azərbaycan türklərinə qarşı törədilən qırğınları sadalamaqla qurtarmaq olmaz. Ermənilər İrəvan şəhərində qadın və körpə uşaqları sonra onları bağ evlərinə doldurub üzərlərinə benzin tökmüş və sonra yandırmışlar. Bu günahsız insanların ah-naləsi bütün dərəni başına götürmüşdü. Bu dəhşətli hadisə zamanı 3 azərbaycanlı uşağı qaçmağa macal tapmış və 4 gün ac-susuz orada qaldıqdan sonra gecə ikən düşüb çox bir uzaq səhraya çatmışlar…

1918-1920-ci illərdə Dro Qanyanın diviziyası İrəvan ətrafı rayonlarda - Vedibasar, Qəmərli, Zəngibasar rayonların kəndlərini yandırmışlar.

Basarkeçər rayonunda 40-dan çox azərbaycanlı kəndi var idi. Azərbaycanlıların yaşadıqları kəndlər Gədəbəy və Kəlbəcər rayonları ilə yaxınlıqda yerləşirdi. Silikovun quldur dəstəsi 1918-ci ildə öz dəstəsi ilə Göyçəyə yaxınlaşıb Basarkeçərin kəndlərində dəhşətli qırğınlar törətdi. Azərbaycanlıların səbri tükəndi, erməniləri Zod kəndində tələyə saldılar və başda Silikyan olmaqla erməniləri tamam məhv etdilər. Türk oğulların bu cəsarəti, şücaəti hayları qorxuya saldı, onların bir çox planlarını pozdu.

Erməni daşnakları 1918-1920-ci illərdə Dərələyəz mahalının Kotanlı, Herher, Bulaqlar, Daylaxlı, Çaykənd, Sofulu və digər kəndlərində də azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişlər. Qırğınlar Dronun başçılığı ilə həyata keçirilmiş, o bu "qəhrəmanlığın" müqabilində qatı millətçi Stepan Şaumyanın mükafatına layiq görülmüşdür.

Tarixi mənbələr göstərir ki, 1918-1920-ci illərdə ermənilərin terrorçu, qəddar üç diviziyası Qərbi Azərbaycanda insanları zülm və işgəncə ilə qətlə yetirmiş, həmişə türk xalqlarına qarşı düşmənçilik mövqeyində durmuş, ən nəhayət, 1988-ci ildə "türklərsiz Ermənistan" xülyasını reallaşdırmağa nail olmuş, "qızıl Moskva" və onların ermənipərəst rəhbərləri həmişə xaç qardaşlarının sözünü demişdir.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 11 iyun (№118).- S.7.